# 90 YAŞLI TƏHSİL MƏBƏDİ

*(Əvvəli ötən saylarımızda)*

Müzeyin fəaliyyətinin genişlənməsi təcrübə mübadiləsi üçün geniş perspektivlər açır. Hindistan, ABŞ, Misir, Əfqanıstan, Bolqarıstanın Qabrova şəhər Mill Təhsil Muzeyinin işçiləri Azərbaycanda Xalq Təhsili Muzeyidə olmuş, 1980-ci ildə Qabrovada təhsil muzeyi yaradılarkən onun açılışına muzeyin direktoru T.Z.Əhmədzadə dəvət olunmuşdur.

Müstəqillik illərində də muzey Azərbaycan təhsilinin təbliğində səmərəli fəaliyyətini davam etdirmişdir. 1998-ci ildə Xalq Təhsili Muzeyinə direktor təyin olunan Əlimirzə Həbibulla oğlu Əhmədovun rəhbərliyi dövründə muzey sözün həqiqi mənasında yüksəliş dövrü keçirmişdir. 2004-cü illədək muzeydə direktor işəyən Ə.Əhmədov muzeyin statusunun yüksəldilməsi sahəsinrdə gərgin əmək sərf etmişdir. Beləliklə, Azərbaycan SSR XKS-nin 27 aprel 1932-ci il tarixli 651 saylı qərarına əsasən yaradılmış muzey 90 illik fəaliyyəti dövründə Zaqfederasiyanın 10 illiyi adına Xalq Təhsili Muzeyi,Azəbaycan SSR XMK Xalq Təhsili Muzeyi, Azərbaycan SSR Xalq Maarif Nazirliyinin Xalq Təhsili Muzeyi, Azərbaycan Dövlət Xalq Təhsili Muzeyi adını daşımışdır. Hazırda Azərbaycan Respublikası Təhsil Naziriyinin Xalq Təhsili Muzeyi kimi fəaliyyət göstərir.

Muzeyə 1932-1934-cü illərdə İsayev Mixail İvanoviç, 1934-1937-ci illərdə Melkumov Aleksandr Xristoforoviç, 1937-ci ildə Hüseynov Kamil İbrahimov, 1937-1939-cu illərdə Kuznetsova Yelena Andreyevna, 1939-1941-ci illərdə Kuzmin İvan Ustinoviç, 1941-ci ildə İsayev Mixail İvanoviç,1941-1943-cü illərdə Ələsgərova Sara Əhmədovna, 1943-1944-ci illərdə Qasımov Teyfur Qədiroviç, 1944-1959-cu illərdəKazımzadə Əli Saleh oğlu,1959-1960-cı illərdə Cəfərov Cəfər Kazım oğlu, 1960-1961-ci illərdə Kazımzadə Əli Saleh oğlu, 1961-1998-ci illərdə Əhmədzadə Tahirə Zülfiqar qızı,1998-2004-cü illərdə Əhmədov Əlimirzə Həbibulla oğlu muzeyin direktoru olmuşlar. 2005-ci ildən Xalq Təhsili Muzeyinə ömrünün böyük bir hissəsini muzeyin təşkilinə və inkişafına sərf etmiş Lalə Bayramova rəhbərlik edir.

Yaranmasından 90 il keçən Xalq Təhsili Muzeyi qədim zamanlardan başlayaraq müasir dövrə qədər Azərbayanda pedaqoji fikrin və təhsilin inkişafı tarixini əks etdirən, bütövlükdə təhsil siseminin nailiyyətlərni təbliğ edən respublika əhəmiyyəli müəssisədir. Muzeydə təhsil sahəsində böyük xidmətləri olan maarifçilərə, elm xadimlərinə, pedaqoq alimlərə, ziyalılara, iş təcrübəsi geniş yayılan qabaqcıl müəllimlərə və təhsil müəssisələrinə dair sənəd və materiallarla yanaşı, tədris prosesini əks etdirən foto şəkillər, nadir dərs vəsaitləri və ləvazimatlar, tədris müəssisələ rində istifadə edilən texniki vasitələr, şagird, tələbə və müəllimlərin əl işləri, albomlar, maketlər və digər eksponatlar nümayiş etdirilir.

Muzeyin xronoloji ardıcıllığa riyaət edilərək elmi - tarixi əsaslar üzərində qurulmuş daimi ekspozisiyası 6 salonda yerləşdirilmişdir. Muzey fəaliyyət göstərdiyi illərdə nəinki təhsil işçilərinin, ümumilikdə Azərbaycan ziyalılarının, gənc nəslin fikir dünyasının öyrənildiyi məkana çevrilmiş, elmi-tədqiqatla məşğul olanlar müzeyin zəngin materiallarından istifadə etmişlər. Muzey ümumtəhsil məktəbləri müəllimlərinin də ən çox sevdiyi mədəni-maarif müəssisələrindən biridir.

Azərbaycan təhsili hazırda özünün intibah dövrünü yaşayır. Respublikamızda Azərbaycan təhsilinin dünya təhsilinə inteqrasiya prosesi sürətlənmişdir. Hesab edirik ki, Xalq Təhsili Müzeyi də bu prosesdən kənarda qalmamalıdır. Muzey sadəcə seyrçilərini gözləməklə kifayətlənməməli, təhsil prosesinin tərkib hissəsinə çevrilməlidir. Bunun üçün ilk növbədə müzey eksponatlarının elektronlaşdırılması qısa müddətdə həyata keçirilməli, muzeyə virtual səyahət mümkün olmalıdır. Muzey Qabaqcıl iş təcrübəsinin yayıldığı məkanlardan birinə çevrilməlidir. Muzeydə dünyanın qabaqcıl təhsil nailiyyətlərinin öyrənilməsi, görkəmli pedaqoqoların mühazirələrinin dinlənilməsi təşkil olunmalıdır. Müəllimlərin ixtisasının artırılması və yenidən hazırlanması kursları quru və təchizatsız auditoriyalardan təhsilin təşkilinə şahidlik etmiş sənədlərin toplandığı yerlərə köçürülməlidir. Muzey əməkdaşları yerlərdə olmalı, eksponatlar toplamalı, qabaqcıl müəllimlərin işini öyrənməli, bir sözlə yerlərdən paytaxta təhsil körpüsünün əsas pillərindən biri olmalıdır.

Qarşıda duran mühüm məsələlərdən biri muzeyin pedaqoji kadr hazırlığında iştirakının təmin olunmasıdır. Muzeydə elmi-tədqiqat işləri genişləndirilməli, Respublika Pedaqoji kitabxanası ilə inteqrasiyası təmin olunmalıdır. Yaxşı olar ki, muzeyin publik hüquqi şəxs olinması məsələsi də müzakirə olunsun.Sonda bir daha 90 illik yubiley münasibətilə muzey əməkdaşlarını, onların timsalında Azərbaycan təhsil işçilərini səmimi qəlbdən təbrik edir, işlərində uğurlar arzulayırıq.

***Mais* Əmrahov**
***AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Azərbaycan Respublikasının tarixi şöbəsinin müdiri, tarix elmləri doktoru, professor***

***Məhsəti MAİSQIZI, ADPU-nun Şəki filialının baş müəllimi.***